

دوشنبه ۲۴ ربیع الآخر سنه ۱۳۳۷ — ایکنجی سنه دوامیه‌سی — ۲۷ کانون‌ثانی ۱۹۱۹ سنه نومرو ۹۸

# آذربایجان

گوندلک سیاسی، اجتماعی، ادبی، اقتصادی تورک غزته‌سیدر.

تورک و اسلاملغه مفید مقاله‌لره صحیفه لرمز آچیقدر. درج اولنمیان اوراق اعاده ایدیلمز. درج ایدیلن مقالاتك مکافاتنی اداره تعیین ایدیور.

اعلان فیاتی: سطری ۳ روبله کراتله گیدن اعلانلار ایچون گذشت ایدیلر.

آبونه شرایطی:

باکو ایچون: ۱ آیلغی ۱۸ روبله، ۲ « ۳۲ »، ۳ « ۴۵ »

غیر شهرلر ایچون: ۱ آیلغی ۲۰ روبله، ۲ « ۳۵ »، ۳ « ۵۰ »

محل اداره: باکو، وورونسوفسکی وغوبرنسکی کوچه‌لرك کنجنده ۴ نومرولی ایوده «آذربایجان» اداره‌سی. تلفون نمره ۶۰-۳۹

تك نسخه‌سی ۷۰ قپك

## وجدان صیزلیور

## آذربایجان مجلس مبعوثاننده

### ۲۰ میلیون تخصیص

*"Azərbaycan" qəzetinin 98-ci nömrəsinin 1-ci səhifəsi*

Bazar ertəsi, 27 yanvar 1919-cu il, nömrə 98

AZƏRBAYCAN

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

İkinci səneyi-dəvamiyyəsi. Düşənbə, 24 rəbiülaxir sənə 1337. 27 kanuni-sani sənə 1919.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.

Abunə şəraiti: Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rubladir. Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rubladir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## VİCDAN SIZLAYIR

Qafqaziya vilayətləri kəndi müqəddəratlarını həll etməyə qalxışdıqda, Axısxa kəndi başına müstəqil bir xətti-hərəkət tutmuşdu. Gürcü sosial-demokratlarının yerli türklərin milli ehtiyacları ilə yerli arzuları əleyhində vaqe olan qabaca hərəkətləri Axısxa ilə bərabər Qars, Ərdahan və Batum həvalisi [bölgəsi] müsəlmanlarında Qafqaziya daxilində dördüncü bir kanton və yaxud federasyon fikrini doğurmuşdu.

Gürcü millətpərəstləri bu fikirlə mübarizə edirdilər. Mübarizələrində vəsilələrin [vasitələrin] növünə və məşruluğuna [qanuniliyinə] çox da əhəmiyyət verməyirdilər. Bu əməl isə əksüləməli mövcib olub [bu əməl isə müqavimətə, reaksiyaya səbəb olaraq] Zaqafqaziya cənub-qərbi müsəlmanları arasında behəqq [haqlı olaraq] zühur edən bu fikri-siyasini [siyasi düşüncəni] canlandırırdı.

Brest-Litovsk müahidəsi [sazişi] nəticəsində türklər Batum, Qars və Ərdahanı tutdular. Bunun üzərinə Axısxa tək qaldı. O zaman kəndi müqəddəratını digər üç vilayətlə birlikdə həll etməyi halına müvafiq görən və gürcü hökumətinə bir növ isinəmməyən Axısxa dəxi digər üç uyezdlə birlikdə Türkiyəyə meyl etdi. Bu meyl üstündə vuruşdu. Əlində silah olaraq mübarizə etdi. Batumda əqd olunan müahidə mövcibincə [imzalanan sazişə əsasən] Gürcüstandan ayrıldı. Fəqət axırkı hadisələrə görə türklər oralarını tərk edib getdilər. Gürcülər isə Axısxanı tutdular. Axısxanın bu hərəkətini idarə edən, bu hərəkətə ruh verən, onu məfkurəvi bir şəklə qoyan məşhur Ömər Faiq əfəndi Nemanzadə idi.

Ömər Faiq əfəndini kim bilməyir? O həssas, o atəşli mühərriri kim tanımayır? Qarsda dağılan xanimanların, Ərdahanda hətk olunan [tapdalanan] namusların, Batumda kəsilən qurbanların o yanıqlı mərsiyənəvisini [mərsiyə oxuyanını], "bir parça ətmək" deyə qəlbləri yaxan o həmiyyət məşəlini hangi azərbaycanlı unuda bilər?

Vaxt vardı; Faiq əfəndi Cəlil Məmmədquluzadə ilə bərabər nəşr eylədiyi "Molla Nəsrəddin" məcmuəsi vasitəsilə cəhalət pərdəsi ilə örtülü olan qara qəlbləri yaxıcı qələmi ilə yaxırdı.

O, binəzir [görülməmiş] bir cəsarətlə müqəddəs zənn olunan hər namüqəddəsə var qüvvəsilə çarpır, bütün vicdanı

ilə hər növ vicdansızlıqlara qarşı protesto edirdi.

O zaman Tiflis, imdiki Tiflis deyildi. Nikolay istibdadının zamanları idi. Faiq əfəndi Tiflisin bugünkü sahibləri ilə birlikdə rus istibdadına qarşı pəncələşir, "Metex" həbsinə otu[r]dulurdu.

Bu istibdad idi.

Fəqət Faiq əfəndi yenə Tiflisdə, yenə həbsdədir. Fəqət bu, yalnız həbs deyildir. Faiq əfəndi təhqir olunur. Faiq əfəndi canilərlə bərabər oturdulub oğrular, qaçqınlar tərəfindən döydürülür.

Möhtərəm oxuyucu, heyrət edirsən.

Əvət, mən də səninlə bərabər heyrətdəyəm.

Bir az əvvəl, Axısxa gürcülərə təslim olunduğu əsnada Faiq əfəndinin Axısxa hərəkətinin başçısı olmaq həsəbilə [səbəbindən] tutulub Tiflisə gətirildiyini eşitdik. Bəzi təşəbbüslər edildi. Nəticədə Faiq əfəndini həbsdən xaric etdilər, fəqət möhtərəmən təhti-nəzərdə [nəzarət altında] bulundurdular.

Bu aralıq, gürcülər Axısxa ilə iktifa [kifayət] etməmiş, Ərdahana doğru səfər eyləmək istəmişlərdir. Bu zəmində əhaliyi-islamiyyə ilə gürcü əsgərləri arasında toqquşma olmuş. Bunun üzərinə Faiq əfəndini təkrar tutmuşlar, həbsxanaya soxmuşlar; fəqət mücrimini-siyasiyyə [siyasi məhbuslar] şöbəsinə deyil, canilər qoğuşuna [otağına] salmışlardır. Canilərə anlatılmış olmalıdır ki, kəndisini "xainivətən" [vətən xaini] deyə fəna surətdə döymüşlər, ölüm halına gəldikdən sonra kəndisindən əl çəkmişlərdir.

Əcəba, kəndisinin hürriyyətpərvərliyini hər münasibət gəldikcə bar-bar bağıran Gürcüstan Hökuməti böylə şənaətə [yamanlığa] nə cür yol vermiş?..

Adil bir adam; bir cani, bir qatil, bir ədna [alçaq] haqqında rəva görülməsi ən qatı müstəbid məmləkətlərdə belə caiz olmayan bu cəzanı bütün Qafqaziya türkləri arasında böyük bir mühərrir, xatiri sevilər bir camaat xadimi olan həmiyyətmənd [həmiyyəli, vətən və millət qeyrəti çəkən] bir zat haqqında nasıl olmuş da Jordaniya hökuməti rəva görmüşdür?!..

Gürcüstan sultasını tanımamaq, gürcü siyasiləri kimi deyil, başqa dürlü düşünmək nə böyük bir cinayətdir ki, böylələrilə qüruni-vüstaya [orta əsrlərə] yaxışır cəzalarla rəftar olunur? Əcəba, siyasi qənaət və fikri üçün bir insan işgəncə edilərmi? Böylə bir işgəncə demokratik bir cümhuriyyətə yaxışarmı?

Gürcüstan Hökuməti bilmək istəməsə də, Gürcüstan camaatı, Gürcüstan mətbuatına mənsub olanlar, Gürcüstan camaat xadimləri bilsinlər ki, Ömər Faiq əfəndinin işgəncə edildiyi, bila-fərqiməslək [ideya fərqi olmadan] bütün Azərbaycan türklərinin qəlblərini cərihədar eyləmişdir [yaralamışdır]. Azərbaycantürk demokratiyasının vicdanı sızlayır. Bu sızılar bu qədər möhtac olduğumuz beynəlmiləl ülfətlərə sui təsir [mənfi təsir] edər. Bilxassə gürcü-türk yaxınlığına böyük səktələr [ziyanlar], böyük zərbələr vurar.

Faiq əfəndinin canilərlə bir otaqda məhbus qalması, Faiqin işgəncə edilməsi, həm də gürcülər əlində işgəncə edilməsi nə qədər vicdan əzici bir xəbər. Əcəba, bütün bunlar doğrumudur?!

Məlumati-mövsuqə [etibarlı məlumat] məəttəəssüf [təəssüf ki], bunun doğru olduğunu bildirməkdədir.

Bu xəbər bütün Azərbaycan məhafilində [dairələrində] bir protesto tufanı qoparmaya bilməz!

Azərbaycan, yalnız Azərbaycan deyil, türk həyati-ədəbiyyə və ictimaiyyəsi [ədəbi və ictimai həyatı] ilə aşina olan hər kəs, bu mənfur xəbəri oxuduqda istəkli qələm arxadaşımıza qarşı vaqe olan bu tövhinə [əziyyətə] qarşı lənət şərarəsi [qığılcımı] yağdırmaya bilməz!

Faiq əfəndi cani olammaz. Siyasi fikrindən ötrü bir şəxsi cəzalandırmaq bilməm ki, Gürcüstan Cümhuriyyətinin şanına karmı?!

Qoy bu sualın cavabını Gürcüstan siyasi məhfilləri versinlər.

Azərbaycan məhafilinin bu məsələ üzərindəki təsirini xülasə edərsək, yalnız şunu söyləyə biləriz:

Vicdan sızlayır!

*M. Ə.*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

### 9-uncu iclas

Şənbə günü kanuni-saninin [yanvarın] 25-i saat 12-də Məclisi-Məbusanın iclası təyin edilmişdi. İclas bir saatdan ziyadə təxirlə açıldı. Növbədəki məsələlər:

1. Hökumət ixtiyarına 20 milyon manat kredit buraxılması haqqında qanun layihəsi;
2. Gəncə Bələdiyyə İdarəsinə 450 min manat faizsiz borc verilməsi;
3. Bakı Bələdiyyə İdarəsinə 2 milyon 300 min manat borc verilməsi;
4. Ədəmi-ictima [eynı zamanda bir neçə vəzifə daşımaq] qanun layihəsi;
5. Məsai Nəzarəti [Əmək Nazirliyi] təşkilatı;
6. Ticarət və sair müəssisələr vəkalətnamələrinin təcdidi [yenilənməsi] məsələsi;
7. "İttihad" fraksiyonunun neft, bez və qeyri şeylər ehtikarı [möhtəkirliyi] haqqında sorğusu;
8. Bakı və Şəki qəzaları ilə yəhudi və ukraynalıların məbusluq yeri istəmələri haqqında;
9. Daxil olmuş kağızlar;
10. Məsai Nəzarətinə istizah [sorğu];
11. Dağıstan Cümhuriyyəti Parlamanının güşadı [açılması] münasibətilə təbrik teleqrafı göndərilməsi;
12. Məbus Bağır Rzayevin yerinə İbrahim Əbilovun namizədliyi.

**20 milyon təxsis [ayrılması]**

Ruznameyi-müzakirat [müzakirə gündəliyi] qəbul edildikdən sonra Hökumətə 20 milyon manat kredit buraxılması haqqındakı məsələyə keçərək, katib əfəndi idxal edilmiş olan zeyldəki [aşağıdakı] qanun layihəsini oxuyur:

İzahnamə

Hökumətin binaqüzarlığına [sərəncamına] 20000000 rubləlik kredit açılmaq xüsusunda qanun layihəsi

Keçirməkdə olduğumuz əhvali-fövqəladə zeyldə mühərrər qanun layihəsinin natiq bulunduğu fondan [aşağıda yazılmış qanun layihəsində göstərilən fondan] təsisini tələb edir. Əsasən fonda məhsubən ediləcək məsarifin smetaya idxalı icab etdiyi [fondun hesabından ediləcək xərclərin büdcəyə daxil edilməsi lazım gəldiyi] halda lüzumu sırası ilə, yəni müəssisələr açıl-

dıqça müsərrəhən [açıq şəkildə] təyin ediləcəyindən məzbur [deyilən] məsarif bir dəfəlik müntəzəm tərtib edilmiş müəssisələr smetasına düşməməklə bərabər, heç bir vəchlə gecikdirilməyəcək bir mahiyyətdədir.

Hal-hazırda gərək mərkəzi, gərək məhəlli [regional] müəssisələrin bir çoxu ya yenidən yapılmaq, yaxud kökündən dəyişmək dövrəsində bulunduğu üçün məzkur [deyilən] müəssisələrin smeta layihələri də hənuz qüvveyi-təşriiyyə [qanunverici hakimiyyət] təsdiqinə məzhər [nail] olmadıqlarından, aid bulunduqları daireyi-səlahdidinə [aid olduqları quruma] təqdim olunmamışdır.

Məmafih [bununla belə], çox vaxt təxiri əsla mümkün olmayan məsarif mütəaqibən [sonradan] zühur etməkdə və layənhəll [həll edilməmiş] burax[ıl]maları da qeyri-qabil bulunmaqdadır. Ələləksər [əksər hallarda] bu kimi dövlət üçün zəruri bulunan məsarif, bir gün belə olsun təxir ediləmməzlər. Halbuki onları qüvveyi-təşriiyyədən keçirmək pək çox zamana mütəvəqqif [bağlı] olduğundan, dövlət mənafeyinə son dərəcə sui təsir göstərə bilər.

Sərd [qeyd] olunan mülahizələrə məbni [əsasən], Heyəti-Vükəla [Nazirlər Kabineti] bərvəchi-zir [aşağıdakı] qanun layihəsini Azərbaycan Məclisi-Məbusanı səvabdidinə [təsdiqinə] təqdim etməyi təhti-qərara aldı.

1) 1919-cu sənəsində vaqe olacaq və şimdidən təyini qeyri-qabil olmaqla bərabər, müstəcəl [təxirəsalınmaz] bulunan və gələcəkdə smetaya idxal ediləcək olan məsarif üçün Azərbaycan Hökumətinin binagüzarlığına [sərəncamına] iyirmi milyon (20.000.000) rubləlik kredit açılsın.

2) Fövqəlzikr [yuxarıda deyilən] kreditdən olunacaq məsarif hər dəfə Heyəti-Vükəla qərarı ilə ifa edilsin.

*Rəisi-Vükəla [Baş nazir]:*
*Fətəli xan Xoyski*
*Maliyyə naziri.*

Layihə maddəbəmaddə müzakirə edilməyə başlayır. Birinci maddə oxunur.

**Əhməd Cövdət** - söz alaraq əsas etibarı ilə hökumət ixtiyarına kredit açılmasını haqlı görür, hər dəqiqə hər məxaric üçün Parlamandan pul istəmək mümkün olmadığından, bir dəfəlik hökumət ixtiyarına bir məbləğ buraxılmasına razı olur. Fəqət, 20 milyon manatı çox görərək deyir ki:

"Hökumət üçün böylə bir fond lazımdır; fəqət mən və zənnimcə yoldaşlarımın bir çoxu da bu rəydəyik ki, birdənbirə 20 milyon verilməsin. Hələlik fövqəladə məsarif üçün 10 milyon kifayətdir, zənnindəyiz. İndi 10 milyon buraxılsın, gələcəkdə hökumətin fəaliyyətini görərik. Lazım olarsa, yenə müraciət edər, yenə pul buraxarıq."

**Məhəmməd Əmin Rəsulzadə** - "Kredit açılması məsələsinə əsas etibarı ilə Əhməd bəy də etiraz etmir, fəqət onun çoxluq-azlığından bəhs edir. Yalnız burası var ki, hökumətin ehtiyacını onun fəaliyyəti ilə əlaqədar tutmaq istəyirlər. Amma məncə hökumətin etibarını büdcə ilə əlaqədar tutub milyonlarla ölçmək olmaz. Hökumətə etimad və etibar bəyan edilmişdir. Böylə isə təxsisat [pul ayrılma-

sı] məsələsini onun fəaliyyəti ilə əlaqədar tutmaq müvafiq deyildir. Biz anlayırız ki, Hökumətin bir aylıq fövqəladə məsarifi 10 milyondan fəzlə olmaz; fəqət milyonun mahiyyəti nədir? Əski qiymətlə götürülərsə 20 milyon manat 200 min manat hökmündədir. Bu isə hökumət üçün çox deyildir. Bilxassə bir ayadək hökumətin smetası hazır olacaqdır. O vaxt təxsisat dəxi smeta üzərinə olar. Amma indilik 20 milyon çox deyildir. Həm də bu məsələni hökumətin fəaliyyəti ilə əlaqədar tutmağı mən münasib görmürəm."

**Sədr** hər iki təklifi səsə qoyur. Əksəriyyəti-ara [səs çoxluğu] ilə 20 milyon buraxılması haqqındakı təklif qəbul olunur. Sonra qanun layihəsi maddəbəmaddə oxunaraq ittihadi-ara ilə [yekdilliklə] qəbula keçir.

**Gəncə Bələdiyyə İdarəsinə 450 min rublə borc verilməsi**

Bundan sonra Gəncə Bələdiyyə İdarəsinə sari [yoluxucu] xəstəliklərlə mübarizə üçün 450 min rublə borc verilməsi haqqındakı layiheyi-qanuniyyə [qanun layihəsi] müzakirə olunur.

**Doktor [Musa bəy] Rəfiyev** məruzəçi sifəti ilə çıxaraq bəyan edir ki, Daxiliyyə Nəzarəti vasitəsilə Parlamana bir layiheyi-qanuniyyə idxal edilmiş və Parlamanın Maliyyə komisyonunda baxılaraq, bu gün Məclisi-Məbusan iclasına təqdim olunur. Layihə budur:

"Azərbaycan Cümhuriyyətinin Daxiliyyə Nəzarəti

16 yanvar 1919

Azərbaycan Məclisi-Məbusanına

Gəncə Bələdiyyə İdarəsinə faizsiz olaraq 450 min manat verilməsi layiheyi-qanuniyyəsi

Bakıdan gəlmiş erməni mühacirləri vasitəsilə Gəncədə 1918 sənəsi dekabrın əvailində [əvvəllərində] səpmə yatalaq xəstəliyi zühur edib, həman ayın əvaxirində [axırlarında] o xəstəlik öylə bir dərəcədə şiddət kəsb etmiş [şiddətlənmiş] ki, şəhərin ermənilərlə məskun ikinci hissəsində xəstələrin miqdarı 500 nəfərə çatmış, şəhərdə xəstəxanalar olmadığından xəstələrin mənzillərində qalmaqla digərlərini də həman xəstəliyə salıb xəstəliyin intişarına [yayılmasına] səbəb olurlar.

Bələdiyyə İdarəsi 29 dekabr tarixli fövqəladə iclasında şəhər doktorlarının əksərinin iştirakı ilə xəstəliyə qarşı tədabir [tədbirlər] məsələsi müzakirəsi əsnasında böylə bir qərara gəlmişlər ki, şəhərin yalnız 25 xəstə üçün sari xəstəxanası hal-hazırın ehtiyacını heç bir vəchlə dəf etməyə kafi deyildir. Müsri xəstələr ehtiyacı üçün şəhərin digər xəstəxanasından istifadə ediləmməz. Çünki xəstəxanada yataqlar məhdud olduğundan savayı, bu xəstəxanaya yalnız məcruh [yaralı] ilə müsri olmayan xəstələr qəbul etməkdədir.

Bunları nəzərə alaraq və müsri xəstəliklərin önünü alıb əhaliyə tibbi müavinət [yardım] etmək üçün Bələdiyyə İdarəsi indilik olaraq əqəllən [ən az] 50 xəstə üçün yeni bir xəstəxana güşadına [açılmasına] qərar vermişdir. Bununla bərabər, xəstələrin mənzil və əşyalarını təthir [təmizləmək] üçün də ənvai tədabir [müxtəlif tədbirlər] görülüb, şəhəri səhiyyə nöqteyi-nəzərindən lazımi bir hala gətirmək fikrindədir.

Məzkur tədabiri [deyilən tədbirlər] qövldən feilə [sözdən əmələ] gətirib, üç ay

ərzində bu təşkilatı (xəstəxana, təthirat [təmizlik] dəstəsi və ilx.) saxlamaq üçün şəhərə təxminən 450 min manat pul lazımdır ki, əlyövm [hal-hazırda] şəhərin qüvvəsindən xaric olan bir məsarifdir.

Müsri xəstəliklər dəfi, xüsusən səpmə yatalaq dəfi məhəlli [yerli] idarələrə deyil, hökumətə aid bir vəzifə olduğundan, Gəncə Bələdiyyə İdarəsi imkanı olduğu qədər bu yolda çalışmaqla bərabər, əlyöm müsri xəstəliyin önünü almaq üçün fəqət [ancaq] 25 min manat buraxmaqla bərabər, hökumət xəzinəsindən eyni məqsəd və mətləb üçün 450 min manat pul verilməsini istida [xahiş] edir.

Gəncə şəhərində hökmfərma olan [hökm sürən] müsri səpmə yatalaq xəstəliyi ilə mübarizədə bulunmanın, xəstəliyi yalnız Gəncə şəhərində əsasından qaldırmanın deyil, fəqət Bakıya keçməsinin dəxi önünü almaq lazım olduğunu düşünərək, Zira xəstəliyin Bakıya sirayət etdiyi təqdirdə kəndisi ilə mübarizədə bulunmanın haman qeyri-mümkün və xəstəliyin o vaxt minlərcə insan tələfatına bais olacağından, Daxiliyyə Nəzarəti, Bələdiyyə İdarəsinin balada məzkur iqdamatının [yuxarıda deyilən təşəbbüsünün] şayani-qəbul [qəbula layiq] olduğunu etiraf edərək, aşağıda dərc olunan layiheyi-qanuniyyəni Məclisi-Məbusanın təsdiqinə təqdim eylər:

1) Gəncə İdareyi-Bələdiyyəsinə [Bələdiyyə İdarəsinə], əmrazı-sariyə [yoluxucu xəstəliklər] ilə mübarizədə bulunması üçün xəzineyi-dövlətdən [dövlət xəzinəsindən] bilafaiz [faizsiz] olaraq 450 min manatlıq bir borcun verilməsi.

2) Məzkur İdareyi-Bələdiyyənin, işbu borcu şəhərin varidat və məsarifat [mədaxil-məxaric] dəftərinə qeyd edilərəkdən, hər sənə müsavi [bərabər] hissələrlə, üç il zərfində xəzineyi-dövlətə verilməsi üçün kəndisini müvəzzəf [cavabdeh] qılmaq.

*Daxiliyyə naziri (imza)*
*İdarə müdiri (imza)*
*Üçüncü şöbə müdiri (imza)*

Maliyyə komisyonu bu məbləğin borc təriqi ilə [borc şəklində] buraxılmasını lazım bilərək, layiheyi-qanuniyyənin qəbul və təsdiqini təklif edir.

**Sultan Məcid Qənizadə** - Əlbəttə Gəncə şəhərinə bu borcu vermək lazımdır. Hal-hazırda müsri xəstəliklər o qədər şiddət etmişlər ki, hökumətlə bərabər camaatın da işləməsi icab edir. Hökumət əgər hökumət isə camaatın dərdinə qalmalı, onu mühafizə etməlidir. Bunun üçün də yalnız Gəncə deyil, qeyri şəhərlərə də pul buraxmalıdır ki, müsri xəstəliklə mübarizə etsinlər; ancaq bu məbləğin miqdarı barəsində bir qədər danışmaq istərdim. Mən bilmirəm nə üçün Bakı Şəhər İdarəsi 600 yataqlıq xəstəxana açmaq üçün 2 milyon 200 min manat istəyir, amma Gəncə 50 yataq üçün 450 min manat. Bu iki məbləğ müqayisə edilərsə, böyük fərq görülər. Böylə ki, yataq hesabı ilə Gəncəninki neçə dəfə artıq çıxar. Əgər məzkur məbləğ yalnız xəstəliklə mübarizə və xəstəxana təsisi üçün isə çoxdur; başqa işlər üçün isə əlahiddə məsələdir. Ona görə bu xüsusda tövzihat [açıqlama] verilməsini xahiş edirəm.

*Bitmədi*

## YOL TƏƏSSÜRATIM

### Tiflis

Gürcüstan Cümhuriyyəti paytaxtı olan Tiflis şəhərinə daxil olduqda, əvvəl Qafqazın əski paytaxtı və sabiq rus hökuməti Qafqaz canişininin məqərri [qərargahı] olan Tiflis hiss edilirsə də, lakin yavaş-yavaş həmin təəssürat yeni görünən lövhələr və şəkillər sayəsində rəf olub [aradan qalxıb] gedir. Artıq Rusiyadan burada bir əsər qalmadığı görünür. Əski rus jandarması əvəzində zahirən ondan bir qədər "xəfif" görünən camaati-xəvassə müfrəzi [xüsusi xalq dəstələri] "narodnoqvardeys", öz vəteninin xidmətində zəif şəkilli, lakin mətanəti-qəlbiyyəsi [qəlbən mətanətlə] ilə qəvi [güclü] olaraq gözə görünür.

Küçələrin hamısında xalq qvardiyası nəfərləri [əsgərləri] nizam və qaydanı mühafizə edirlər. Ara-sıra milli qoşun əfradı [əsgərləri] müşayiəti altında erməni əsirlərini ora-bura aparırlar.

Erməni-gürcü müharibəsi münasibətilə bura ermənilərinin başları aşağı sallanıbdır. Ermənilərin bu hallarına bərəks [əksinə] olaraq, müsəlman əhalisi kamalitəmkin və vüqarla "papaqları gözləri üstə" şəhərin küçələrində asudə gəzirlər. Bunların böylə bir şəkildə görünüşləri, islam əhalisinin mehriban və dost bir məmləkətdə yaşamalarına dəlalət edir.

Qolovinski prospektdə gəzərkən böylə bir mənzərəyə təsadüf etdim: gürcü qoşun dəstələri musiqi ilə arxadaşlarından birini darülbəqaya [əbədiyyət evinə, məzara] müşayiət edirlər. Bu dəstənin qarşısına küçənin sağ tərəfindən başqa bir dəstə gəlir. Burada acaralılar dəstəsi, xalq qvardiya nəfərləri, könüllü müsəlman dəstələri, hamısı müsəlləh [silahlı] olaraq kamali-qaidə və nizamla bir nəfər gürcü təbəəsi olan müsəlman cənazəsini təşyi edirlər [yola salırlar]. Orada musiqi Şopenin qəmli marşını çalır, burada isə cənazənin qarşısında gedən mollanın uca səslə oxuduğu "ləhəvləvəlaə"si bir əməllə [niyyətlə] birləşmiş və həmin əməl yolunda qurbanlar vermiş iki mədəniyyətin asarını [əsərlərini] samilərin [eşidənlərin] qulaqlarına eşitdirir.

***

Əvət, bu gün gürcü millətçiləri böylə söyləyirlər: Biz indiyə kimi böylə güman edirdik ki, Zaqafqaziyada üç qisim millət yaşayır. Lakin şimdi artıq düşündük ki, bunlar üç deyilmiş, yalnız iki imiş: şərqdə azəri türkləri, qərbdə gürcülər. Məvərayi-Qafqaz [Zaqafqaziya], yalnız bu iki milləti təşkil edir.

Qafqaz millətlərinin bir bu qədər bəla və müsibətdən sonra öz hüquqlarını qazanmaq üçün səy və kuşiş etdikləri [çalışdıqları] əsnada və böylə imtahan günlərində ölkədə ixtilaf çıxarıb da Rusiyadan ayrılmış Qafqaz məmləkətlərinin istiqlaliyyətə nail olmaq ümidlərini puç etmək fikri ilə bunlar arasında qanlı müharibə salan erməni "daşnak" məhafilinə [dairələrinə] qarşı filhəqiqə [həqiqətən də] gürcülər miyanında [arasında] qayət şiddətli bir nifrət vardır ki, həmin nifrət nəinki yalnız biz millətçilər, hətta gürcü sosialistləri tərəfindən dəxi ibraz olunur [nümayiş etdirilir]. Demək olar ki, "daşnaklar" əleyhinə mövcud olan nifrət, bütün erməni millətinə qarşı nifrətamiz bir

hissiyyata müncər olmuşdur [çevrilmişdir] və bu nifrət “daşnakların” hökumət başında durmağı davam etdiklərinədək yaşaya-caqdır.

Erməni nümayəndəsi Gürcüstan Parlamanında Gürcüstan ermənilərinin "sədaqətindən" dəm vurduqda, gürcülər tərəfindən "Bəs Şulaveri xəyanəti necə olsun?" kimi iradlar olunur. Ermənilərə inanan yoxdur.

Bu gün gürcülərin hər bir sinifləri arasında böylə iman vardır ki, ermənilərin bu fövqəladə və qayət namünasib bir zamanda Qafqazda müharibə salmalarından məqsəd, yalnız Qafqazda bir şuriş [qarışıqlıq] yapıb, burasını Müttəfiqlər nəzərində yaman qələmə vermək imiş. Başqa bir səbəb görməyirlər.

***

Müttəfiqlərin müdaxiləsi sayəsində qət olmuş [dayandırılmış] erməni-gürcü müharibəsində ümumən kim qazandı, kim qeyb etdi?

Bu məsələ hələ dürüst bəlli deyildir. Gürcü mətbuatına baxdıqda, qeyb edənlər ermənilər olmuşlar. Lakin "əhli-xibrə"lər [mütəxəssislər] böylə söyləyirlər ki, həmin müharibədə mütəzərrir olan [zərər çəkən] yenə də gürcülər olmuşlar. Artıq tələfatla bir çox əsir vermişlər və nəhayətdə mübahisəli yerlər ingilislər tərəfindən işğal edilmişdir. Bunlar[ın] sonra kimə veriləcəyi, yəqindir ki, başqa bir mübahisəyə səbəb olacaqdır. Hər halda bir çox tələfat verdikdən sonra üzərlərinə təmayül edən [paylarına düşən] müvəffəqiyyətdən bəhrəmənd olmayan [faydalanmayan] gürcülər, müharibənin böylə bir nəhayətə varmasından razı qalmamışlardır.

***

Burada rus ünsürü artıq görünməyir kimidir.

Hər halda gürcülərin paytaxtı “girdəpapaq” süvari həriflərdən məsundur [qurtulmuşdur]. Lakin ingilislər vardırlar və hər gün buradakı qüvvələrinin artırılması söylənir. Bununla belə, ingilislər buraya mehman sifətində gəlmələri gözə çarpır. İngilislərin mehman sifətində gəldikləri və Tiflisdə idarə tamamilə gürcülər əlində olmasına dair sübutlardan biri də onların böyükləri, heyətləri və generalları avtomobillə Gürcüstan Cümhuriyyəti ricali-hökumətinin [hökümət adamlarının] nəzdinə [yanına] gəldikləridir. Bunu gördükdə hər bir azərbaycanlının qəlbində müxtəlif hisslər oyanır.

***

Ömər Faiq əfəndi ilə görüşdüm. Tövqifdən [həbsdən] azad olub da xanənişinliyə [ev həbsinə] məhkum olduğunu bəyan etdilər. Mumaileyh [adı keçən şəxs], bu rəsmiyyət üstündən götürülərkən Bakıya gedəcəklərmiş. Ömər Faiq kimi qəyur [geyrətli] bir zatın Bakıya vürudu [gəlməsi] səmərəsiz qalmayıb, nadir olan fəal mücahidlərimizin qüvvəsi artmağa inanırız.

***

Bu gün siyasi nümayəndəmiz Məhəmməd Yusif Cəfərov tərəfindən müsa-

fir olduq. Burada iki gün qalıb lazımi material cəm etməyə və həm də dağıstanlı arxadaşlarımızı gözləməyə sərf edəcəkdik. Lakin eşitdik ki, gürcü heyəti-mürəxxəsəsi [nümayəndə heyəti] bizdən bir gün əvvəl Batuma getmişlər. Bunun üçün yarın Batuma tərəf getməli olduq.

*Ceyhun Dağıstani*

## TELEQRAF XƏBƏRLƏRİ

* Parisdə müntəşir [nəşr olunan] "E." qezətəsinin məlumatına görə, ingilis hökuməti şimdiki polyak hökumətini, başda Pilsudski olmaq üzrə, təsdiq eyləmişdir.

* İstanbul - Türkiyə qəzetələri Türkiyə ilə Yunanıstan arasında ittifaq bağlamağı hökumətə tövsiyə edirlər.

* Hal-hazırda Sibiryada 80 min Yaponiya saldatı vardır. Bu yaxınlarda Qara dəniz ilə Əqsayi-Şərq [Uzaq Şərq] arasında gəmi hərəkatı başlanacaqdır.

* General Şkuronun dəstəsi yanvarın 15-də Həsəntuki [Yessentuki] şəhərini işğal etmişlərdir.

* Don qoşunları Sarepta deyilən yeri alıb bolşeviklərdən külli qənimət almışlardır.

* Soçiyə zeyldəki [aşağıdakı] məlumat verilir: Yekaterinodarda baş komandan Kubanda olan qeyri millətlərin də silah altına alınmalarına əmr vermişdir. Yanvarın 15-də səfərbərliyin 1-ci günü təyin edilmişdir.

* Almaniya Müttəfiqlərə 25 milyard ingilis lirəsi dava xərci verməlidir. Bu qədər pulu verməkdən Almaniya aciz olduğu üçün pul əvəzinə Almaniyanın müstəmləkələrini almaq istəyirlər. Elzas-Loren Fransaya mülhəq olmalıdır [birləşməlidir]. 1915-ci ildə malik olduğu kömür mədənləri də Fransa ixtiyarına keçə bilər. Bu da bu qədər dava xərcinə kifayət etmədiyi üçün əcnəbi banklarında olan qızıl pulları da Müttəfiqlər əlinə keçəcəkdir. Harold Koks[un] hesabına görə, banklarda 650 milyon ingilis lirəsi qiymətində məbləğ var. Bu da aşkardır ki, Belçika ilə Fransadan aparılmış olan bütün makinalar da qaytarılmalıdır. Hərgah bunlar da ümum xərci ödəməsə, o zaman Almaniya ticarətini borcları ödəməyə vadar edəcəklərmiş.

* Berlin - Yanvarın 19-da Almaniya Məclisi-Müəssisanı[nı]n intixabı [seçkisi] icra edilmişdir. Çox arvadlar da intixabatda iştirak etmişlərdir. Seçkilərdə hərbi məmurlar da iştirak etmişlərdir.

## SÜLH ƏTRAFINDA

* Parisdə iniqad etmiş [baş tutmuş] Sülh Konfransı Rusiyaya müavinət etmək məqsədi ilə Rusiyanın hökumətlərindən, yaxud qüvvələrindən üçər nümayəndə dəvət eyləmişdir. Bunlar, adı hələlik məlum olmayan bir cəzirəyə [adaya] nümayəndələrini göndərəcəklər. Cəzirə Mərmərə dənizindədir. Müttəfiq dövlətlər nümayəndələri orada onları istiqbal edəcəklərdir [qarşılayacaqlar]. Bundan məqsəd odur ki, rusiyalılar özləri öz müqəddəratını həll etsinlər.

* Almaniya 8 cümhuriyyətdən ibarət bir ölkə olacaqdır. Başda isə 10 milyon əhalisi olan böyük Berlin Cümhuriyyəti olacaqdır.

* (Fransız mətbuatı) Müttəfiq dövlətlər başçıları, Vilsonun təklifi üzərinə zeyldəki [aşağıdakı] qərarı qəbul etmişlərdir. Müttəfiq dövlətlərin Rusiya barəsində olan yeganə məqsədləri budur ki, Rusiya əhalisinə öz mülahizələri ilə müqəddəratını həll etməyə müsaidə verilsin. Müttəfiqlər nümayəndələri Rusiya millətini özlərinə düşmən deyil, dost sanırlar. Rusiya əhalisinin arzusuna görə, Rusiyaya müavinət etmək istənilir. Hərgah, Müttəfiqlər Rusiyada əmin-amanlıq bərpa və nəqliyyat işlərini islah etməsələr, Rusiya əhalisi indiki aclıq və qıtlıqdan xilas olmayıb, daima Rusiyada iğtişaş artacaqdır. Ona görə də Müttəfiqlər Rusiyada asayiş bərpa etmək üçün Rusiya əhalisinə kömək vasitələri axtarırlar. Kənardan təzyiq olmadan Rusiya əhalisinin özləri öz işlərini idarə etməyə haqlı olduqlarını Müttəfiqlər qəbul edirlər. Heç halda Müttəfiqlər Rusiyadan sui-istifadə etmək istəməyirlər. Müttəfiqlər Rusiya inqilabının mahiyyətini anlayırlar. Əks-inqilabçılara heç bir vəchlə müavinət etməyəcəklər və Rusiyada hökumət üstündə yekdigəri ilə boğazlaşan dəstələrin heç birinə, bir-birini yıxmağa müavinət etməyəcəkdirlər. Mütəffiqlərin yeganə amalları Rusiyaya sülh verərək mümkün olduqca tez, Rusiyanı indiki haldan xilas etməkdir. Müttəfiq dövlətlər bütün Avropada və bütün cahanda sülh və müsalimət [asayiş] bərpa edəcəklərinə söz vermişlər və bunu da inkar etməyirlər ki, nə qədər Rusiyada dinclik yoxdur, bütün Avropada sülh ola bilməz. Ona görə də Müttəfiqlər Rusiyada sülh və müsalimət bərpasına və Rusiya əhalisinin arzusuna müvafiq bir surətdə Rusiyanı sahili-nicata [xilas sahilinə] çıxarmağa var qüvvələri ilə çalışacaqdırlar.

**Türkiyə dəmiryolları**

İngilislərlə fransızlar, Bağdad dəmiryolu başda olmaq üzrə, bütün Türkiyə dəmiryolları ümuri-idarəsini [idarə işlərini] əllərinə almışlardır.

* Fransa mətbuatı xəbər verir ki, gələn şənbə günü Xariciyyə Vəzarətində Sülh Konfransının yeni fövqəladə iclası olmalıdır. Bu cələsədə [yığıncaqda] Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] məsələsi də müzakirə ediləcəkdir. Lloyd Corcun Cəmiyyəti-Əqvam məsələsi maddələri barəsində olan təklifi mübahisələrə səbəb olmuşdur. Təklif qəbul olunduqdan sonra, Burjua, Sesil və general Amet tərəfindən hazırlanmış layihəni Vilson məclisə təqdim edəcək və bu axırıncılar bu məsələ xüsusunda ətraflıca danışıqda bulunacaqdırlar. Sonra bu qanun layihəsi xüsusi komissiyaya veriləcəkdir. Almaniya tərəfindən müharib [savaşan] və qeyri-müharib dövlətlərə vurulan xəsarət miqdarının təxmini də bu komissiyaya mühəvvəl ediləcəkdir [tapşırılacaqdır].

## DAĞISTAN CÜMHURİYYƏTİNDƏ

*(Xüsusi müxbirimizdən)*

Cəbhədə təbədüllat [dəyişiklik] yoxdur. Tereçnaya-Arqun xətti cəbhədir. Arqun bizim əlimizdədir. Müvəffəqiyyətli bir surətdə ordu təşkil edilir. Orduya həvəslə daxil olurlar. Əsgərlikdən qaçan yoxdur.

* Yanvarın 15-də Teymurxanşurada oblast şurası açılmışdır. Camaat intixab etmədiyi [seçmədiyi] və sabiq komissar Qabiyev tərəfindən təyin edilmiş köhnə şura üzvlərinin dəvət edilmələri əleyhinə Qazıqumuq əhalisi protesto etmişdir. Qazıqumuqlular təzədən seçki olmasını xahiş edirlər.

* Qabardadan gələn nümayəndənin dediyinə görə, bolşeviklər görünməmiş vəhşiliklər törədirlər. Bir çox adamlar qətl edilmişdir. Qabarda nümayəndəsi gözləri yaşlı nəql edir ki, bolşeviklər nəinki onların əleyhinə olanları, bəlkə qeyrilərini də tələf edirlər. Ancaq vaxtlı-vaxtında meşələrə və dağlara qaçanlar xilas oldular ki, onların da bir çoxu soyuqdan və aclıqdan həlak olmuşdur. Qabardada bolşeviklərin sayəsində əhalinin hər bir şeyi əlindən çıxmışdır. Hürriyyətprəvər Qabarda nümayəndəsi Qabardaya qonaq gələn bolşeviklərin bu hərəkətlərini ağlaya-ağlaya nəql edirdi.

* Teymurxanşurada ehtikar [möhtəkirlik] şiddət etməkdədir [artmaqdadır]. Bir tək xüsusi adamlar deyil, ictimai və hökumət müəssisələrində o[la]nlar da ehtikar ilə məşğuldurlar. Şeylərin qiyməti hər gün artmaqdadır. Kəndlilərin nalələrinə qulaq asan yoxdur. Ərzaq naziri ehtikarla mübarizə ediləcəyini izhar eyləmişdir [bildirmişdir]. Bu barədə xüsusi qanunlar veriləcəkdir. Mühəndis Saleh Hacıyev Dağıstanda ərzaq naziri vəkili təyin edilmişdir.

## MÜƏLLİMLƏR İCLASI

İşbu kanuni-saninin [yanvarın] 24-də, saat 11 radələrində, Bələdiyyə İdarəsi salonunda şəhər məktəb müəllimlərinin ümumi iclası vaqe olmuşdu. İclas, Bakı Bələdiyyə Məkatib [məktəblər] şöbəsi sədri Əlicabbar əfəndi [Orucəliyev] təşəbbüsatı ilə dəvət edilərək, müsəlman müəllimlərinə məxsus türk lisanı kursları güşadına [açılmasına] münhəsir [həsr] edilmişdi. İclasda 30-dan ziyadə müsəlman müəllimləri iştirak edirdi. Şayani-təəssüf [təəssüf ediləcək] bir cəhət var idisə, o da türk xanım müəllimələrinin isbati-vücud [iştirak] etməmələri idi. Halbuki, iclas barəsində bütün şəhər məktəblərinə birər dəvətnamə göndərilmişdi. Xanımlardan, fəqət [sadəcə] Hənifə xanım Məlikzadə xanım öz ixtiyarlığına [yaşlılığına] baxmayaraq iclasda hazır olmaqla, ruhən nə qədər gənc olduğunu və nə qədər milli məsailə [məsələlərə] əhəmiyyət verdiyini göstərirdi.

Əlicabbar əfəndi məclisi açmadan əvvəl, şamaxılı müəllimlərə müraciətən ora qaçqınlarının fəna halını təsvir ilə, Şamaxılılar Həmtorpaqlıları Cəmiyyətində çalışmağı onlara təklif etdi. Şamaxı qaçqınlarının əhvalı olduqca müdhiş bir surət kəsb etmişdir [surət almışdır].

Sonra əsl mətləbə keçərək, türk lisanı kursları barəsində məlumat verir:

- Bizim buraya yığışmamızın səbəbi türk lisanı kursları güşadı məsələsidir. Hamınıza məlumdur ki, bir çox təcrübəli müəllimlər həyatın ağırlığından naşi [ötrü] öz vəzifələrini buraxıb başqa-başqa işlərlə məşğuldurlar. Məktəblərdə olanlar şimdi yeni müəllimlərdirlər. Yeni, əski, əsl mətləb buradadır ki, hamımız türk lisanında zəifik. Hamı şəhər məktəbləri, hətta ali-ibtadi məktəblər də milliləşmişlərdir. Bunlara müəllim lazımdır. Bu

sənə bir növ keçiniriz. Fəqət, gələcək sənə üçün bizə türk lisanını mükəmməl surətdə bilən müəllimlər lazım olacaqdır ki, milliləşmiş siniflərdə tədrisatı ana lisanımızda apara bilsinlər. Keçən sənə kurslar güşad edilmişdi. Fəqət, bir çox səbəblərdən dolayı müntəzəm deyildi. Şimdi öylə etməlidir ki, müntəzəm surətdə aparılsın.

Sonra müəllimələrin və bir çox müəllimlərin bu gün gəlməməsindən şikayətlə, kursların lüzumiyyəti barəsində ifadeyi-məram edərək [danışaraq], kurslar üçün 30 min rubləlik bir məbləğ Bələdiyyə Məclisindən istənilməsini dərmiyan etdi [meydana atdı]. İşbu məbləğin 15 min rubləsi erməni lisanındakı kurslara (?), 15 min rubləsi türk lisanı kurslarına məxsus olacağını söylədi:

- Bu para Bələdiyyə Məclisinə idxal edilməyibsə də, yenə mən itminan [inam] bəsləyirəm ki, Maliyyə şöbəsi bunu rədd etməyəcəkdir. Şimdi işbu para ilə işi özünüz aparmalısız.

Axundzadə əfəndi təşəbbüsatın şayani-təhsin [alqışlanmağa layiq] olmasını söyləyir, fəqət işi müntəzəm surətdə aparmaq üçün layihə tərtibini lazım bilir.

Bədəl bəy əfəndi əski müəllimlərin aclıqdan naşi qəza qaimməqamı, polis müfəttişi olmalarını söyləməklə, müəllimlərin maddi cəhətlərinin təmin edilməsi lüzumiyyətini göstərir. “Madam ki, Maarif Nəzarəti və Bələdiyyə İdarəsi müəllimləri təmin etməyir, iki yüz kurs açılsa da bir şey çıxammaz. Zira müəllim, çocuqlarının aclığı dərdini çəksin, yaxud kursda təhsil etsin?” - sözləri ilə nitqinə xitam verir.

Əlicabbar əfəndi, Bədəl bəy əfəndinin sözlərinə şərik olaraq əlavə edirlər ki, şimdi təminat məsələsi ziyadəsincə müşkül bir haldadır. Bələdiyyə İdarəsi kassasında pul yoxdur. Azərbaycan Hökuməti hər ay şəhərə borc pul verir. Şimdi eşitdiyimizə görə hökumət, müəllimləri təmin etmək istəyir. Böylə olduqda bizə də şamil etmək mümkün olacaqdır; fəqət acıq deyə iş görməyək demək də səhvdir, deyir. Gələcəkdə Bakıda Müəllimlər İnstitutu açılacağı barəsində bir məruzə hazırlayıb Bələdiyyəyə verəcəyini bəyan edir. Fəqət, şimdilikdə “baş açıq qalmamaq” üçün işbu kurslardan istifadə etməyi təklif edir.

Axundzadə əfəndi də müəllimlərin üsrət [əziyyət] çəkdiklərini söyləyir. Hacıəlizadə Səməd bəy əfəndi türk lisanını bilən müəllimlərin lüzumiyyətindən bəhslə, müəllimlərə məxsus bir neçə “stipendiya” [təqaüd] açılmasının mütəmənna olduğunu [arzuedilən olduğunu] söyləyir. Hacıəlizadə Səməd bəy kursda təhsil edəcək müəlliminə [müəllimlərə] stipendiya verilməsinin işə kömək edəcəyini də zənn edirlər.

İsrafilbəyzadə Ağababa bəy əfəndi, iclasa müraciətən keçən sənədəki kimi kurslarda müəllimsiz və kitabsız qalacaqlarından əndişə edib, müəllimimiz olmadığı kimi tədrisat kitablarımız da yoxdur, deyir. Lakin məlum olur ki, Kazımzadənin kitab mağazasında bir çox kitab vardır ki, istifadə etmək mümkün ola biləcəkdir.

Əbdülzadə təklif edir ki, kurs işlərini müntəzəm surətdə aparmaq üçün müəllimlər miyanından [arasından] bir komisyon təşkil edilərək, kurs idarəsi ona tapşırılsın. Məsələni səsə qoymağı təklif edirlər. Sədr komisyon intixabına [seçki-

sinə] keçməyi təklif edir. Hənifə xanım məktəblərimizin, xüsusən ünas [qız] məktəblərinin türk lisanı bilən müəllimlər yoxluğundan əmələ gələn halını təsvirlə *"Məlumatlı və müqtədir müəllimimiz ola bilsin çoxdur, fəqət dil, dil yoxdur, dilsiz məktəb milli nəşvü-nüma tapammaz [tərəqqi edə bilməz]"* deyir.

Təklif edilir ki, komisyon dörd nəfərdən ibarət olsun. Komisyon seçilib, intixab edilənlər bunlardır:

1) Hacıəlizadə Səməd bəy;
2) Axundzadə;
3) Əliməhəmməd əfəndi;
4) Əbdülzadə Əbdül.

Təcrübəli müəllimlərdən Mahmudbəyov Mahmud bəy komisyon[un] ricasına görə müavinətdə bulunacaqdır. Komisyon lazım biləcək müəllimləri cəlb etmək ixtiyarına malikdir. Komisyon həman gündən fəaliyyətə başlayaraq layihə tərtib etməyə başlamışdır.

Məclis saat bir radələrində qapanır.

*T.*

## FƏHLƏLƏRİMİZƏ DAİR

Bizim sadiq demokratlarımız, rus demokratları ilə bərabər işləməyə başladılar və rus demokratları həmişə bunu deyirdilər:

Yoldaşlar, bunu bilin və agah olun! Keçmiş istibdad zamanında sərvətdarlar, bəylər, xanlar bizim başımıza nələr gətiriblər və bunu da bilməlisiz ki, dünya daima həyat mübarizəsidir. Biz də bunu nəzərə alıb mübarizə etməli, bəylərin, xanların əlindən qurtarmalıyız.

Yoldaşlar! Xanların, bəylərin əlindən nə tövr qurtarmalı? Bir millət qardaşlıq edib bir yerdə işləməklə və bu istədiyimizə yetdikdə hər millət dünyada müstəqil yaşaya bilər.

Bu vədələrə inanıb yaxşı da "müstəqil" yaşadıq.

Həmin "müstəqil yaşarsınız" deyən demokratlar bizi öylə vəhşiyanə bir surətdə qırdılar ki, beşikdə olan uşağımıza da rəhm etmədilər.

Yaşasın belə "demokratlıq"! Böylə bir tarixi günləri yaddan çıxartmamalı ki, bizə verdiyi vədələrin nəticəsi nə oldu? Əvət, bizləri yalançı vədələrlə aldadıb hökuməti ələ keçirtdilər və hökuməti əlinə keçirdikdə, qeyri yerlərdə yaşayan müsəlmanları bir-bir qırmağa başladılar. Nə etməli? Bu qırılma bizi ayıltdı, çünki bizlərdə öylə bir istedad yoxdu ki, döyülməmiş, qırılmamış ayılaq. Səhv etməmiş olaram desəm ki, biz döyüldükcə cürbəcür fikirlərə düşdük. Deməli, bu bəlalar başımıza gəldikdə, o cürə "demokratlardan" ayrıldıq və bu ayrılmağımıza da səbəb özləri oldular. Əgər türklər Qafqaza gəlməsəydilər, bizləri tamamən qırıb məhv edərdilər. Deməli, bizlərin sağ qalmasına səbəb türklər oldular və türklər Bakıya gəldikdən sonra öz arzularımıza yetişdik. Deməli, biz də özümüzü azadə bir millət bilib və cəmi dünyada yaşayan millətlərə biz azərbaycanlıların müstəqil bir dövlət olmağını bildirdik.

Azərbaycan adında bir dövlət təşkil etdikdən sonra, genə oxumuşlarımız hərə öz partiyasında var qüvvələri ilə işləməyə başladılar. Fəqət bizim firqələrdə işləyən oxumuşlarımız genədəmi qeyri millətlərlə bərabər işləyirlər? Haşa və

kəlla [əsla yox, qətiyyən yox]! İndi buna əminəm ki, cavan oxumuşlarımız əlbir olub var qüvvələri ilə ancaq Azərbaycanın müstəqil bir dövlət olmaq qabiliyyətini cəmi cahanın həqiqi demokratlarına məlum edəcəklər. Qafqaziyada yaşayan yalançı "demokratlara" deyirik:

"Gedin, gedin də bizdən əl çəkin! Hanı sizin bizə verdiyiniz vədələrin nəticəsi! Siz demokratlar deyirdiniz: Cümlə cahan füqəraları bir yerə toplaşın! Biz füqəra da bir yerə toplandıq, fəqət sizin o daş ürəyiniz rəhmə gəlməyib, həya etmədiniz və biz füqəraları birəhmanə bir surətdə qırdınız!"

Ah, harda idi o vaxtda indiki ağlımız bunları dərk edəydik və dərk etdikdə, o zalımların iti çəngalindən [caynağından] qurtaraydıq? Amma nə etməli? Keçmiş keçdi. İndi var qüvvə ilə işə başlamalıyıq. İşə başladıqda, ən əvvəl bizə lazımdır öz fəhlələrimizi bir yerə toplayıb onları bu işdən agah etmək və onların vəzifələrini onlara bildirmək ki, məbada fürsəti fövtə verələr. Necə ki verdilər. Necə ki, keçənki zabastovkada məlum oldu ki, onlar iqtisadi zabastovka ilə siyasi zabastovkanı bilmədilər. Çünki onları başa salan hərifলər öylə başa salmışdılar. Hərgah onlar öz vəzifələrini biləydilər, böylə işlərə iqdam [təşəbbüs] etməzdilər. Çünki böylə bir siyasi zabastovka bizim Azərbaycan Hökumətinin əleyhinədir. Zatən, fəhlələri də töhmətləndirmək olmaz, çünki elm yox, bu zamanəyə dair bilik yox. Təkrar edirəm ki, bu barədə fəhlələri heç bir vaxt təqsirkarlandırmaq olmaz. Demokrat firqələrimiz həftədə bir dəfə də olsun fəhlələri bir yerə toplayıb onlara böylə məsələləri qandırmalıdır və onlar üçün kitabxanalar, teatrolar və klublar düzəldib, onları böylə işlərə ruhlandırmalıdırlar. Hərgah fəhlələr böylə işlərə ruhlanarlarsa, deyə bilərəm ki, bir daha bundan sonra böylə məsələlərin əlində aciz qalmazlar.

İndi baxalım şəhərdə işləyən müsəlman fəhlələrinin halına. Ələlxüsus, hökumət mətbəəsində işləyən fəhlələr bu məsələyə nə tövr baxırlar? Bunu deyə bilərəm ki, mətbəədə işləyən mürəttiblər bunu çox yaxşı başa düşdülər ki, bu zabastovka nədir və zabastovka səbəbləri olan adamlar biz müsəlmanların başına nələr gətirdilər. O idi ki, bu zabastovka qurtardıqda biz hökumət mətbəəsində işləyən fəhlələrin halı nə tövr keçdi. Çünki üstümüzdə ağa olan qeyri millətdir. Heç bir vaxt bizlərə məhəbbət yetirməyir. Çox da aşkar etmək istəmirəm, bizlərə nələr edirlər. Qoy hələ üstü örtülü qalsın.

Keçən dəfə Xəlil İbrahimzadə əfəndi ilə Kazımzadə cənabları bir məclis düzəldib, biz hökumət fəhlələrini oraya dəvət etdi. Biz də yığıldıqdan sonra bizə atəşin nitqlər söylədilər. Əvvəl dəfə məclisdə nitqə başlayan Xəlil əfəndi oldu. Doğrudan da biz fəhlələrin halına dair çox gözəl nitqlər söylədi və bu nitqdən çox mənfəətlər hasil etdik. İkinci natiq daha qeyri bir mənfəətli sözlər danışdı. Bizim üçün böyük qapılar açdı. Lakin, nədəndir ki, sair sosialist firqələrimiz bir dəfə də olsun gəlib biz fəhlələri bir yerə yığıb, dərdimizə çarə aramadı. Hərçənd bizim də, sosialistlərin də zəhmətləri çoxdur. Amma nə etməli? Gərək bir az da zəhmətlərini artırıb, biz fəhlələrin halına yansınlar və bundan əlavə biz fəhlələr

üçün bir klub açsınlar ki, orada hər dəm məclislər qurub hər bir yerdən məlumatımız olsun. Sosialistlərin ən əvvəl danışdığı sözlər fəhlə barəsində olur, amma işə baxıldıqda hələ heç bir şey görməyirəm. Halbuki hər gün, hər saat və hər dəqiqə fəhlələrin başına zamanəyə dair məsələləri geydirmək və onların hüququnu onlara anlatmaq və sonra onlardan hər bir köməklik gözləmək olar. Necə qeyri millətlər öz fəhlələrini hazırlayırlar və pis günlərində onlardan kömək gözləyirlər. Mənim əqidəmcə, siz sosialistlər və hökumətimiz biz fəhlələri qeyri millət fəhlələri kimi hazırlasaydılar, o vaxt heç bir düşməndən də qorxumuz olmazdı.

*Bir nəfər fəhlə mürəttib*

**BAKI XƏBƏRLƏRİ**

**Ərizə**

Lənkəran müsəlmanlarının vəkili Teymur bəy Bayraməlibəyli tərəfindən Rəisi-vükəla [Baş nazir] Xan Xoyski həzrətlərinə zeyldəki [aşağıdakı] ünvanlı ərizə verilibdir:

*"Yanvar ayının 20-də Lənkəran hökuməti 600-dən ibarət qoşun, iki top, üç pulemyotla mücəhhəz olan məşhur qaçaq Yunislə məa [birgə] Zuvand mahalında olaraq Lerik müsəlmanlarını qarət edib, evlərini yandırıb, özlərini öldürmək qəsdilə cəbrən [zorla] təslim etməyə gediblər. Onlar öz vətənlərini saxlayıb "Muğan idarəsi" adlanmış hökumətə tabe olmaq istəməyirlər. Bu barədə hüzuri-alilərinizə yazıb, zalımların sitəmkaranə hərəkatının qabağını alıb biçarə müsəlmanları zülüm və sitəmdən xilas etmənizi rica edirəm."*

**Biçeraxovun getməsi haqqında**

General Biçeraxov "K." qəzetəsinin mühərriri ilə etdiyi müsahibə əsnasında öz mənsəbindən qəti surətdə əl çəkəcəyini bildirmişdir. Biçeraxov İranda olduğu zamandan Bakıya gələnə qədər öz tarixindən nəql edib axırda demişdir ki, naxoş olduğuma görə Batumda özümə müalicə etdirmək niyyətindəyəm. Beş həftə bundan əvvəl öz mənsəbimdən əl çəkməyi qərara alıb general Prjevalskinin mənim yerimə gəlməsi üçün müzakiratda bulunmuşdur. Biçeraxovun getməsinin təxirə düşməsi ancaq ətrafla münasibatda bulunmağı müşkül olmasından irəli gəlmişdir.

* "Müsavat" firqəsinin Balaxanı şöbəsi tərəfindən ümum yoldaşlara elan olunur ki, yanvarın 31-də, cümə günü saat 10 tamamda Sultanəli Novruzəli oğlunun mülkündə vaqe "Müsavat" idarəsində ümumi iclas vaqe olacaqdır. Məsələ lazımlı olduğuna binaən [görə] yoldaşların gəlmələrini rica edəriz.

*İdarə*

**Saxta pul fabrikası**

Vera Moiseyevna Nesambaum adında bir nəfər arvad, Quba meydanında olan köhnə paltar satanlardan libas alıb əvəzində saxta pul verirmiş. Bu əhvalatı polis acentələri xəbər tutub həman arvadı həbsə alandan sonra cibində bir çox miqdarda saxta pul tapıldığı üçün evində də təftiş etmişlər. Təftiş zamanı Nesam-

baumun otağında, Çadrovı küçədə, 199 nömrə evdə mükəmməl surətdə hazırlanmış saxta pul makinası kəşf edilmişdir. Makinadan başqa otaqda 76.450 manat qəlp pul tapılmışdır. Bu pullar Bakı bonunun 25 manatlıq kağızları imiş. Bu miqdarın 37 min manatlığı hazır qayrılmış və bazara buraxılmağa hazır imiş. Pul kəsməkdə məşğul olan Abram Nesambaum və Lazar Krimberq öz arvadı Raxil Krimberq və bir də İmran Məhərrəmoviç Əmirov polis nəfəratı [nəfərləri] tərəfindən həbsə alınıbdır. Bu barədə ciddi tədabir ittixaz olunubdur [tədbirlər görülübdür].

**Təhərri polisə acentinin yaralanması**

Bakı təhərri polisəsinin acenti [axtarış polisi agenti] İbrahim Quliyev Krasnovodsk və Qanlıtəpə küçələrinin küncündə yol ilə keçərkən bir nəfər naməlum şəxs bir güllə ilə mərqumu [adı çəkilən şəxsi] yaralayıbdır. Bu barədə təftişat davam edir.

* Bakı əhli Məhəmmədəli Abbas oğlu polisəyə məlum edir ki, ayın 23-də gündüz saat birdə şəhərdən Bayıl yolu ilə gedərkən iki nəfər naməlum əşxas [şəxslər] bunu tutub güclə 350 manat pullarını qarət ediblər. Təftişat polis tərəfindən aparılır.

**Fəhlə Konfransında**

Yanvarın 26-da Fəhlə Konfransının iclası vaqe olaraq müştərək müqavilənamə məsələsi müzakirə edilmişdir.

Roxlin sülh komissiyasının fəaliyyəti və müzakiratın gedişi haqqında məruzə vermişdir. Məlum olmuşdur ki, mədənçilər evli, subay, ümum fəhlələr bilafərq [fərq qoyulmadan] 360 manat artırmağa, hətta bolşeviklərin də qərarı ilə əlavə edilmiş qismdən başqa, əski müştərək müqavilənaməni də qəbul edirlər.

Danışıqlar nəticəsində, konfrans müzakiratın[ın] tez qurtarmasını tələb edici bir qərarnamə qəbul edilmişdir.

## TEATRO VƏ MUSİQİ

**“Qəzavat”**

Fəzilət və qiyməti-ədəbiyyədən ari [üstünlüyü və ədəbi dəyəri olmayan], Qafqaz və Dağıstan həyatına heç də uymayan, bir erməni qızının “Dağıstan hürriyyəti” uğrunda can verdiyini iraə ilə [göstərməklə] Qafqaz millətləri həyat və münasibatından [münasibətlərindən] bilkülliyyə [tamamilə] bixəbər olan, Dağıstan mücahidlərinin ağzına “kommunist”lərə məxsus sözlər söylətməklə bu mücahidlərin amal və əfkarını yanlış bir surətdə göstərən, uzun-uzun, boş-boş monoloqlarla tamaşaçıların qulaqlarını yoran, canını sıxan, səbrini tükətən, son dərəcə boş və biməzmun bir drama! Təəccüb edirəm ki, zövqi-ədəbisi [ədəbi zövqü] “Dağılan tifaq” kimi qiymətdar bir əsər ilə müsbət [sübut edilmiş] olan, səhnə işlərini gözəl bir surətdə bilən Əbdürrəhim bəy Haqverdili cənabları nasıl oldu da bu biməzmun əsəri rusdan tərcümə etməyə həvəs etdi?!

Əgər cümə günü Hökumət Teatrında oynanılan bu pyesənin baş rolu olan “Əhməd bəy”i oynamaq əzabını Hüseyn Ərəblinski kimi mahir və müqtədir bir drama artisti üzərinə götürməmiş olsaydı, əminəm ki, camaat durub teatrodan qaçardı. Onları yerlərində saxlayan,

məhz Hüseyn Ərəblinskinin oyunu idi. Amma yazıq Ərəblinski, ki hər bir cəhətcə nagüvara [düzgün olmayan], dəyərsiz və qiymətsiz olan bu rolun naşükür yolunda öz artistlik məharəti xəzinəsinin dəyərli və qiymətli əmək və səylərini sərfə məcbur idi.

Bu ruhsuz oyunda artistlik şərəfi qazanan oldusa da, o da erməni qızı "Aşxen" rolunu oynayan xanım Tanailidi [idi] ki, xəyanətini duymuş olan aşnasını məzəmmət edərkən, rolunu gözəl bir surətdə ifa etdi. Zatən pyesənin qiymətli yeri də elə bu idi ki, vardı. Dağıstan həyatından bixəbər olan müsənnif [müəllif], aşnasının xəyanətini duymuş bir arvadın əhvali-ruhiyyəsinə yaxşı bələd imiş.

Müdiriyyətə tövsiyyəmiz budur ki, drama oynatmaq istərkən oynanılacaq əsərlərin seçkisinə böyük bir diqqət yetirsin. Camaatı ancaq bu yol ilə drama tamaşasına həvəsləndirmək olar, vəilla [yoxsa] camaat drama oyunlarına baxmaq şövqündən düşməklə, gözəl dram pyesələrinin mənfəətindən məhrum qalar.

Bir də, tamaşaçıların teatrda özlərini fəna apardıqları, zalda papiros çəkmək, meyvə yemək və sairə barəsində nə qədər yazılmışsa, nə camaat diqqət vermişdir, nə müdiriyyət. Şimdi biz müdiriyyətə böylə qəti və şiddətli tədbir təklif ediriz: Bundan sonra tamaşa vaxtı müdiriyyət tərəfindən zalda bir adam qonulsun, hər kəs teatro ədəbinə riayət etməsə, dərhal kassaya aparıb biletini qaytarsın və özünü dışarı çıxarsın.

Əlavə, "Mikado" teatrını bir təmizlətsin.

*Mizrab*

## İDARƏDƏN CAVABLAR

**Əbdüləhəd Mirzəzadə** əfəndiyə: "Millətlər imtahanı" sərlövhəsi ilə yazmış olduğunuz məqalənin məzmunu Məhəmməd Əmin Rəsulzadə cənablarının "Hesab günü" adlı məqaləsində daha gözəl bir surətdə təsvir edilmişdi. Onunla iktifa [kifayət] edəlim.

**Hüseyn İsrafilbəyov** əfəndiyə: Yazmış olduğunuz mətləb xüsusunda cənabınızla görüşüb, danışmaq istərdik. Mümkününüz olsa, idarəmizə təşrif gətirmək zəhmətini müzayiqə etməyəsiniz [əsirgəməyiniz].

**Səid** əfəndiyə: Daşnakların əf'al və əqvallarındakı təbayünlərini [işləri ilə sözləri arasındakı ziddiyyəti] zikr edirsiniz. Onların şüarı bir kərə bu olubdur: Məqsəd yolunda hər bir əməl və vəsilə caizdir; istər yaxşı olsun, istər yaman.

**Hacıağa Nurizadə** əfəndiyə: Camaatımızın ziyalı bir qismini təşkil edən tələbələrimizin "məchul" bir halda qalmalarına səbəb nə camaatdır, nə də hökumət. Qaranlıq yerlərimizə işıq saçanlar ziyalılarımızdan başqa kim ola bilər? Təhsili-üluma [elm öyrənməyə] davam etmək həvəsi şayani-təqdirdir [təqdirəlayiqdir]. Lakin Amerikaya getmək xəyalını buraxıb da Yevropa yolu açılmasına müntəzir olmaq və intizardan sıxılmamaq üçün o vaxta qədər millət və camaat yolunda iş görməklə vaxt keçirmək səlahdır [xoşagələndir]. Yevropa təhsili yolu açıldıqdan sonra hökumətimizin tələbələrimizə kömək edəcəyi şübhəsiz bir əmrdir [işdir].

**Mama**
**M. K. Şerman**

Qəbul edir: mamalıq, ovmaq (massaj) və iynə vurmaq işləri. Həmçinin xəstələrə qulluq etmək işində də təcrübəsi vardır.

Ünvanı: Kolyubakinski küçədə Parapetin qabağında Dildarovun 26 nömrəli evində 2-nci mərtəbədə. Telefon 24-62.

**Doktor**
**Əliheydər Allahverdiyev**

Daxili naxoşları qəbul edir: səhər saat 8-dən 10-adək; axşam saat 4-dən 6-yadək. İçəri şəhərdə Malı Krepostnovı küçədə 8 nömrəli evdə. Telefon nömrəsi 36-91. Малая-Крѣпостная ул. д. № 8. Телефон № 36-91.

*2603*

**Doktor**
**Samuil İzrailoviç Kopelioviç**

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. “914” dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

*282*

**Doktor İ. Q. Sibiroviç**

Daxili və uşaq xəstələrini qəbul edir səhər saat 9 - 12-yədək; axşam saat 4 - 6-yadək. Staro-Poliseyski küçədə nömrə 25 (Kolyubakinski küçəsinin küncündə). Telefon nömrə 42-12.

*2658*

**Doktor Ağahüseyn Kazımov**

Qayıdıb əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olan naxoşları qəbul etməyə şüru etmişdir [başlamışdır]: səhər saat 10-dan 12-yə kimi; axşam saat 4-dən 6-ya kimi. Ünvan: Parapetdə, Şəfi İbrahimovun evində 3-cü mərtəbədə. Telefon: 86-27.

*2655*

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Hökumət mətbəəsi**

1919-cu il üçün yanvarın 25-i radələrində yeni və əski üsul ilə türk və rus dillərində divar təqvimi buraxacaqdır. Qiymət tək satışda 8 manat, külli surətdə alanlara 60 prosent güzəşt edilir. Mağazaçılara və külli surətdə alanlara elan ediriz ki, Hökumət mətbəəsi hər cür məktəb dəftərləri münasib qiymətə satışa buraxacaqdır.

Adres: Bakı, Birjevaya küçədə, Skobelevin evində, nömrə 17.

*T-13*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir bəy***

## QEYD VƏ ŞƏRHLƏR

**Vicdan sızlayır**

səh. 437. "bir parça ətmək": Ömər Faiqin 1915-ci ilin yanvar ayında "İqbal" qəzetində nəşr edilən təsirli məqaləsinə işarə vurulur; məqalə "Bir loğma ətmək" adlanır.

səh. 438. "Metex": Tiflisdəki tarixi Metex qalası nəzərdə tutulur. XIX əsrin əvvəllərindən etibarən bu qaladan həbsxana kimi istifadə edilmişdir.

səh. 439. "M. Ə.": bu imza Məhəmməd Əmin Rəsulzadəyə məxsusdur.

**Azərbaycan Məclisi-Məbusanında**

səh. 439. "...İbrahim Əbilovun namizədliyi": qəzetdə "Əbilovun" yerinə səhvən "Əliyevin" getmişdir.

səh. 442. "...eyni məqsəd və mətləb üçün 450 min manat pul verilməsini istida edir.": qəzetdə "450 min" yerinə "340 min" getmişdir.

"Zira xəstəliyin Bakıya sirayət etdiyi...": qəzetdə "Bakıya" yerinə "köyə" getmişdir.

**Yol təəssüratım**

səh. 443. "ləhəvləvələ": "Bütün güc-qüvvətin mənbəyi ancaq Allahdır" mənasına gələn "Lə həvlə və lə qüvvətə illa billah" sözünün qısaldılmış forması.

səh. 444. "..müvəffəqiyyətdən bəhrəmənd olmayan...": qəzetdə "müvəffəqiyyətdən" yerinə "müvəffəqiyyətə ki" getmişdir.

**Teleqraf xəbərləri**

səh. 445. "Parisdə müntəşir «E.» qəzetəsinin...": "Ekselsior" qəzeti nəzərdə tutulur.

**Müəllimlər iclası**

səh. 448. "...erməni lisanındakı kurslara (?)": sual işarəsi qəzetdə getmişdir.

"Axundzadə əfəndi": güman ki, Gəncə Türk Müəllimləri İttifaqının sədri İdris Axundzadə nəzərdə tutulmuşdur.

"Bədəl bəy əfəndi...": güman ki, uzun müddət Bakıda məktəb müdiri olan Bədəl bəy Bədəlbəyli nəzərdə tutulmuşdur.

"İsrafilzadə Ağababa bəy": qəzetdə "İsrafilzadə Ağa bəy" kimi getmişdir.

"...Kazımzadənin kitab mağazasında...": söhbət Abbasqulu Kazımzadədən gedir.

**Fəhlələrimizə dair**

səh. 449. "...genə oxumuşlarımız hərə öz partiyasında...": "oxumuşlarımız" yerinə qəzetdə "oxucularımız" getmişdir.

səh. 450. "...Kazımzadə cənabları bir məclis düzəldib...": güman ki, Abbasqulu Kazımzadə nəzərdə tutulur.

**Teatro və musiqi**

səh. 453. "Mizrab": bu imza Üzeyir bəy Hacıbəyliyə məxsusdur.